Milli Büdcə Qrupu

# AYLIQ BÜLLETEN №6(6)

Avqust 2007

# Mündəricat


1. **Büdcə prosesi və büdcə gəlirləri**

- *Dövlət büdcəsinin icrası (yanvar-iyul 2007-ci il)*
- *ARDNŞ Dövlət Neft Fonduna iyunda 2 milyon 128 min 794 manat vəsait köçürmüşdür*
- *Azərbaycanın büdcə təşkilatları qənaət edilmiş vəsaitlər hesabına kompensasiya ödəyəcəklər*

2. **Vergilər**

- *2008-ci ildə Azərbaycanda verginin iki növü üzrə vergi yükünün azaldılması gözlənilir*
- *Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat*

3. **Maliyyə Nazirliyi**

- *Azərbaycanın Maliyyə Nazirliyi əməkdaşları Naxçıvan MR-də maliyyə əməliyyatlarında dünya standartlarının tətbiqi ilə bağlı həmkarlarına tövsiyələr edir*

4. **Şəfafflıq**

- *Azərbaycan Neft Fondu 2007-2009-cu illər üçün maliyyə hesabatının auditorunu seçib*
- *Azərbaycanda MHŞT üzrə yeddinci hesabat mərhələsi başlandı*

6. **Digər yeniliklər**

- *Yaponiyadan Azərbaycana kredit*

## Büdcə prosesi və büdcə gəlirləri

***Dövlət büdcəsinin icrası (yanvar-iyul 2007-ci il).*** 2007-ci ilin yanvar-iyul aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 74.0 faiz artaraq 3615.6 milyon manata, xərcləri isə 58.8 faiz artaraq 2896.0 milyon manata çatmış, büdcənin icrasında yaranmış 719.6 milyon manatlıq profisit ümumi daxili məhsulun 5.6 faizini təşkil etmişdir. Gəlirlərin 77.3 faizi (2796.2 milyon manatı) Vergilər Nazirliyi, 12.0 faizi (435.0 milyon manatı) Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilmiş, büdcə proqnozu isə bu təşkilatlar tərəfindən müvafiq olaraq 108.8 faiz və 101.0 faiz səviyyəsində yerinə yetirilmişdir. Gəlirlərin 640.3 milyon manatı və ya 17.7 faizi əlavə dəyər vergisindən, 1684.5 milyon manatı (46.6 faizi) hüquqi şəxslərin mənfəət (gəlir) vergisindən, 312.9 milyon manatı (8.7 faizi) fiziki şəxslərın gəlir vergisindən, 171.3 milyon manatı (4.7 faizi) aksiz vergisindən, 207.3 milyon manatı (5.7 faizi) isə xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən daxil olmuşdur.

**2007-ci ilin yanvar-iyul aylarında dövlət büdcəsinin gəlirləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Gəlirlər – cəmi** | **3615,6** | **100,0** | **28,4** | **174,0** |
| *o cümlədən:* | | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 312,9 | 8,7 | 2,5 | 184,1 |
| Hüquqi şəxslərin mənfəət(gəlir) vergisi | 1684,5 | 46,6 | 13,2 | 6,8d |
| Torpaq vergisi | 15,7 | 0,4 | 0,1 | 153,9 |
| Əmlak vergisi | 39,6 | 1,1 | 0,3 | 128,6 |
| Əlavə dəyər vergisi | 640,3 | 17,7 | 5,0 | 151,8 |
| Aksiz | 171,3 | 4,7 | 1,3 | 2,2d |
| Mədən vergisi | 66,1 | 1,8 | 0,5 | 135,7 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 207,3 | 5,7 | 1,6 | 140,0 |
| ondan idxal rüsumu | 85,4 | 2,4 | 0,7 | 110,2 |
| Sair vergilər | 35,3 | 1,1 | 0,4 | - |
| Digər gəlirlər | 442,6 | 12,2 | 3,5 | 121,5 |

Büdcə xərclərinin 1032.5 milyon manatı (35.7 faizi) iqtisadiyyata investisiya qoyuluşuna, 360.4 milyon manatı (12.4 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 431.5 milyon manatı (14.9 faizi) isə təhsilin maliyyələşdirilməsinə sərf edilmişdir. Xərclərin 32.6 faizini (943.4 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

**2007-ci ilin yanvar-iyul aylarında dövlət büdcəsinin xərcləri**

| | İcra, milyon manat | Xüsusi çəkisi, faizlə | | 2006-cı ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| | | Yekunda | ÜDM-da | |
| **Xərclər – cəmi** | **2896,0** | **100,0** | **22,7** | **158,8** |
| *o cümlədən:* | | | | |
| Ümumi Dövlət Xidmətləri | 246,9 | 8,5 | 1,9 | 128,7 |
| *ondan:* | | | | |
| beynəlxalq təşkilatlara üzvlük haqqı | 2,2 | 0,1 | 0,02 | 53,7 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 181,3 | 6,3 | 1,4 | 149,8 |
| Təhsil | 431,5 | 14,9 | 3,4 | 144,9 |
| Səhiyyə | 113,0 | 3,9 | 0,9 | 147,3 |
| Sosial müdafiə və sosial təminat | 360,4 | 12,4 | 2,8 | 2,0d |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 47,5 | 1,6 | 0,4 | 144,4 |
| İqtisadiyyata | 1032,5 | 35,7 | 8,1 | 183,6 |
| *ondan:* - mənzil və kommunal təsərrüfatı | 37,0 | 1,3 | 0,3 | 122,9 |
| - kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 82,7 | 2,9 | 0,6 | 92,1 |
| - sənaye, tikinti və faydalı qazıntılar | 870,0 | 30,0 | 6,8 | 2,6d |
| - nəqliyyat və rabitə | 32,6 | 1,1 | 0,3 | 74,6 |
| Sair xərclər | 482,9 | 16,7 | 3,8 | 132,5 |
| *Profisit* | **719,6** | - | **5,6** | - |

**ARDNŞ Dövlət Neft Fonduna iyunda 2 milyon 128 min 794 manat vəsait köçürmüşdür**

Ötən ildən Dövlət Neft Şirkəti (DNŞ) ”Azərbaycan Respublikasının 2006-cı il Dövlət büdcəsi haqqında” Qanunun 3-cü maddəsinə əsasən, Dövlət Neft Fonduna ödənişə başlamışdır. Həmin maddəyə görə, Azərbaycan Respublikasında istehsal edilən və ixrac olunan xam neftin qiyməti bir barrel üçün 40 ABŞ dollarından yuxarı olduqda xam neftin kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxmaqla) respublikadaxili topdansatış qiyməti arasındakı fərqdən Azərbaycan Respublikası Dövlət Neft Fonduna ödənişlər verilməlidir. Cari ilin birinci yarısında Dövlət Neft

Fonduna 16 milyon 494 min, iyunda isə 2 milyon 128 min 794,39 manat vəsait köçürülmüşdür. Yeni ödəniş növü dövlət büdcəsinə ödənişlərdən əlavə olaraq, DNŞ-nin təmiz gəlirindən ayırmalardan ibarətdir.

**Azərbaycanın büdcə təşkilatları qənaət edilmiş vəsaitlər hesabına kompensasiya ödəyəcəklər**

Dövlət strukturlarından verilən məlumata görə, əmək məzuniyyətindən istifadə etməyən işçilərə ödənilməli olan kompensassiya büdcə təşkilatının öz hesabından ödəniləcək. Müvafiq göstəriş Maliyyə Nazirliyinin məktubu vasitəsilə yayılıb. Dövlət stukrurunun nümayəndəsinin sözlərinə görə, komensasiyalar dövlət büdcəsindən ödənilə bilməz, belə ki, bu vəsaitlər 2007-ci ilin dövlət büdcəsində nəzərdə tutulmayıb.

# Vergilər

## 2008-ci ildə Azərbaycanda verginin iki növü üzrə vergi yükünün azaldılması gözlənilir

Ölkənin Maliyyə Nazirliyindən verilən məlumata görə, ƏDV-in inzibatçılığı sisteminin təklimlləşdirilməsi artıq 2008-ci ildən bu verginin dərəcəsini parallel olaraq azaltmağa imkan verəcək, belə ki, vergi toplanışı təkmilləşməlidir. «Hazırda ƏDV-in dərəcəsinin 0,5-1% aşağı salınması imkanları müzakirə olunur» - deyə nazirlikdən bu məsələyə yaxın olan mənbə bildirib. Hazırda Azərbaycanda ƏDV-in dərəcəsi 18% təşkil edir. Nazirlik tərəfindən təklif olunan vergilər üzrə sənəd layihəsində ƏDV-hesabların və çeklər vasitəsilə ƏDV-in ödənişinin tətbiqi nəzərdə tutulub. Maliyyə Nazirliyində vergi ödəyiciləri üçün əlavə süründürməçilik səbəbindən çek sisteminin tətbiqini ideal hesab etmirlər. Lakin ƏDV-hesabların açılmasını maliyyəçilər 2008-ci ildən real hesab edirlər. Bu təklif artıq üç ildir ki, irəli sürülüb. Sözü gedən sistemin yekun olaraq işlənməsi üçün Vergilər Məcəlləsinə 2007-ci il üçün olan dəyişiklik və əlavələrdən bu maddə götürülüb. Bank sisteminin, vergi ödəyicilərinin dövriyyə vəsaitlərinin tətbiq edilməsi il əlaqədar olaraq bir sıra texniki məqamlar üçün vaxt tələb olunub. Verginin digər növləri üzrə dərəcələrin aşağı salınması nəzərdə tutulmur, lakin digər yollarla vergi yükünün azaldılması imkanları nəzərdə tutulur. Bu arada Maliyyə Nazirliyində ən yüksək gəlir vergisi dərəcəsinə malik olan maksimal məbləğin nəzərdən keçirilmə ehtimalını istisina etməyiblər (35%), lakin ikisəviyyəli miqyas dəyişməz qalacaq (gəlir vergisinin minimum dərəcəsi 14% təşkil edir). Dərəcələr üzrə son dəyişikliklər 2006-cı ildə edilib. Gəlir vergisi üzrə dərəcələr 24%-dən 22%-qədər azalıb, mənfəət vergisi üzrə 35% maksimal dərəcəyə malik olan gəlirin məbləği 600 manatdan min manatadək artıb.

**Dövlət büdcəsinə vergi və digər ödəmələrin daxil olması haqqında məlumat**
**İyul, 2007** (min AZN). Naxçıvan MR ilə

| Vergi və tədiyyələrin növləri | 2007, iyul | | | |
|---|---|---|---|---|
| | Proqnoz | Daxilolma | Faiz | Fərq |
| Əlavə dəyər vergisi | 64 484,8 | *58 516,0* | 90,7 | -5 968,8 |
| Aksiz | 39 437,6 | *38 440,0* | 97,5 | -997,6 |
| Mənfəət vergisi | 457 705,8 | *645 709,5* | 141,1 | 188 003,7 |
| Mədən vergisi | 11 244,1 | *11 074,7* | 98,5 | -169,5 |
| Torpaq vergisi | 2 314,6 | *2 442,7* | 105,5 | 128,1 |
| Əmlak vergisi | 6 220,2 | *4 975,2* | 80,0 | -1 245,0 |
| Fiziki şəxslərin gəlir vergisi | 52 234,5 | *54 968,3* | 105,2 | 2 733,8 |
| Dövlət rüsumu | 3 670,3 | *4 459,7* | 121,5 | 789,4 |
| Yol vergisi | 1 489,5 | *1 491,1* | 100,1 | 1,6 |
| Sadələşdirilmiş vergi | 3 206,4 | *5 568,4* | 173,7 | 2 362,0 |
| Sair daxilolmalar | 1 928,9 | *16 660,9* | 863,7 | 14 732,0 |
| **C Ə M İ** | **643 936,7** | **844 306,4** | **131,1** | **200,369,7** |

# Maliyyə Nazirliyi

## Azərbaycanın Maliyyə Nazirliyi əməkdaşları Naxçıvan MR-də maliyyə əməliyyatlarında dünya standartlarının tətbiqi ilə bağlı həmkarlarına tövsiyələr edir

Naxçıvan MR-nin Maliyyə Nazirliyinin yeni inzibati binasının açılış mərasimi olub. Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov iştirak ediblər. Açılış mərasimində çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, Naxçıvana gələn Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin nümayəndə heyəti gün ərzində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əməkdaşlarına maliyyə əməliyyatlarının necə keçirilməsi sahəsində dünya standartlarında tətbiq olunan üsulların mənimsədilməsində köməklik göstərəcəklər. Nazir qeyd edib ki, muxtar respublikanın büdcə xərcləri 2007-ci ildə 2003-cü illə müqayisədə 3,2 dəfə artaraq 170 milyon manata, dövlət büdcəsindən ayrılmış dotasiyanın məbləği isə 5,3 dəfə artaraq 152, 7 milyon manata çatmışdır. Həmçinin nazir bu il muxtar respublikanın büdcəsinin ötən ilkindən 45, 9 faiz çox olduğunu bildirmişdir.

# Şəfafflıq

## Azərbaycan Neft Fondu 2007-2009-cu illər üçün maliyyə hesabatının auditorunu seçib

Azərbaycan dövlət neft fondunun 2007-2009-cu illər üçün olan maliyyə hesabatının auditi «Deloitte» tərəfindən aparılacaq, fondan verilən məlumatda belə bildirilir. Sorğunun keçirilməsinin əsasında, bu şirkətin təklifi daha münasib hesab olunub. Fondun 2004-2006-cı illərdəki auditoru «Ernst Young» şirkəti olub.

## Azərbaycanda MHŞT üzrə yeddinci hesabat mərhələsi başlandı

Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) Azərbaycanda tətbiqinə dair Memorandumu imzalamış tərəflərin – MHŞT üzrə hökumət Komissiyası, Azərbaycanda hasilat sənayesi ilə məşğul olan yerli və xarici şirkətlər və qeyri-hökumət təşkilatlarının Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası – nümayəndələrindən ibarət Seçim Qrupunun 2007-ci il avqustun 30-da keçirilmiş iclasında MHŞT üzrə yeddinci hesabat mərhələsinə start verilmişdir. Seçim Qrupunun üzvləri 2007-ci ilin birinci yarısını əhatə edəcək hesabatların təhlil edilərək tutuşdurulması üçün audit şirkətinin seçilməsi məqsədilə keçiriləcək müsabiqədə iştiraka dair Azərbaycanda fəaliyyət göstərən və dünyada tanınmış nüfuzlu beynəlxalq audit şirkətlərinə bildiriş göndərilməsini qərara almışlar. Təşəbbüsün Azərbaycanda həyata keçirilməsinə dair mexanizmə uyğun olaraq seçiləcək audit şirkəti hesabat dövrü üzrə Azərbaycan hökumətinin və ölkədə fəaliyyət göstərən neft və qaz şirkətlərinin hesabatlarını təhlil edərək onlara rəy verəcək.

# Digər yeniliklər

### Yaponiyadan Azərbaycana kredit

Dünya Bankı isə ölkəmizi güzəştli kredit əldə edən ölkələr qrupundan çıxarıb.Yaponiya beynəlxalq əməkdaşlıq bankı Azərbaycana su təminatı və kanalizasiya sisteminin yaxşılaşdırılması layihəsi üzrə qiymətləndirmə qrupu göndərməyi planlaşdırır. Hökumətdən verilən məlumata görə, ilkin qiymətləndirmə su təminatı sisteminin bərpası üzrə aparılıb, sonradan layihəyə kanalizasiya sistemi də qoşulub. Bununla yanaşı, layihəyə daxil olan bölgələrin sayı 6-dan 10-na çatdırılıb. Layihənin dəyəri isə artaraq 400 milyon dollara yaxınlaşıb və bu məbləğin bir hissəsini Yaponiya bankı ayıracaq. Məlumat üçün deyək ki, Azərbaycan hökuməti bankdan 160 milyon dollar kredit ayırmağı xahiş edib. Bankın ayıracağı məbləğ tərəflər arasında aparılan müzakirələrin nəticəsindən asılı olaraq dəyişə də bilər. Layihənin icrasına gələn ilin oktyabrında başlanılacağı planlaşdırılır. Bu arada isə öyrəndik ki, Dünya Bankı Azərbaycanı güzəştli kredit alan ölkələr qrupundan çıxarıb. Məlumatı Nazirlər Kabineti yayıb. Belə ki, 2009-cu ildən etibarən Azərbaycanda həyata keçirilən iqtisadi layihələrə kredit ayırmayacaq. Hökumətdə DB-nin bu addımını şərh edərkən "Güzəştli kredit verilməsinin şərtlərindən biri kredit veriləcək ölkədə adambaşına düşən ümumdaxili məhsulun həcminin 1280 dollardan çox olmamasıdır. Azərbaycanda isə hər bir ölkə vətəndaşına 1462 dollar ümumdaxili məhsul düşür", - deyiblər. Öz növbəsində iqtisadi inkişaf naziri Heydər Babayev hesab edir ki, ilin sonuna kimi bu rəqəm 2 dəfədən çox artaraq 3 min dollara çatacaq. Qeyd edək ki, ölkəmiz sonuncu dəfə 20 milyon dollarlıq güzəştli krediti gələn il əldə edə bilər. Bu vəsaitin korporativ və dövlət sektorunda hesabat layihələri üçün xərclənməsi nəzərdə tutulur.

***Mənbələr:***
Dövlət Neft Fondu
Vergilər Nazirliyi
Maliyyə Nazirliyi
http://www.xalqqazeti.com
http://www.trend.az